İQTİSADİ İSLAHATLARIN
TƏHLİLİ VƏ KOMMUNİKASİYA
MƏRKƏZİ

Aprel 2017

# AZƏRBAYCAN İQTİSADİ İSLAHATLAR İCMALI



Baş redaktor : Dr. Vüsal Musayev

İqtisad Elmləri Doktoru
London Universiteti

# AZƏRBAYCANDA ŞƏKƏR ÇUĞUNDURU İSTEHSALININ STİMULLAŞDIRILMASI İLƏ ƏLAQƏDAR ƏLAVƏ TƏDBİRLƏR




Azərbaycan Respublikası Prezidenti İlham Əliyev ölkədə şəkər çuğunduru istehsalının stimullaşdırılması məqsədilə 4 Aprel 2017-ci il tarixli müvafiq Fərman imzalamışdır.

Fərmana əsasən, şəkər çuğundurunun emalı ilə məşğul olan hüquqi şəxslərə və hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti həyata keçirən fiziki şəxslərə təhvil verilmiş şəkər çuğundurunun hər tonuna görə onun istehsalçılarına 4,0 (dörd) manat məbləğində subsidiya ödənilməsi nəzərdə tutulur. Burada onu da qeyd etmək yerinə düşər ki, kənd təsərrüfatı məhsulları istehsalçılarına əkin sahəsinin becərilməsində istifadə etdikləri yanacaq və motor yağlarına görə dövlət büdcəsinin vəsaiti hesabına verilən yardım 2017-ci ildən etibarən şəkər çuğunduru əkinlərinə şamil edilməyəcəkdir.

İmzalanmış Fərmana uyğun olaraq, şəkər çuğundurunun emalı ilə məşğul olan hüquqi şəxslərə və hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti həyata keçirən fiziki şəxslərə təhvil verilmiş şəkər çuğundurunun hər tonuna görə onun istehsalçılarına subsidiya verilməsi qaydasının hazırlanması və Fərmandan irəli gələn digər məsələlərin həll edilməsi Azərbaycan Respublikası Prezidenti ilə razılaşdırmaqla iki ay müddətində Azərbaycan Respublikası Nazirlər Kabineti tərəfindən həyata keçirilməlidir.

Eyni zamanda, Azərbaycan Respublikası Maliyyə Nazirliyi tərəfindən maliyyələşmə məsələlərinin təmin edilməsi prosesinin həyata keçirilməsi Fərman çərçivəsində öz əksini tapan məqamlar arasında yer almaqdadır.


www.iqtisadiislahat.org
www.ereforms.org
www.ecoreform.az
Bakı, Yasamal rayonu,
Landau küçəsi 16, AZ 1073
info@ereforms.org
(+994)12 5213318
/ iqtisadiislahat